UOT 94(479.24)

İLHAM MƏMMƏDOV
Gəncə Dövlət Universitetinin
Azərbaycan tarixi kafedrasının baş müəllimi, tarix üzrə fəlsəfə doktoru
ilhamseyid528@gmail.com

AZƏRBAYCAN TORPAQLARINI VAHİD DÖVLƏT HALINDA BİRLƏŞDİRƏN SÜLALƏYƏ DAİR

DOI: https://doi.org/10.36719/2708-065X/103/5-11

IX əsrin ortalarından başlayara Abbasi xilafətində feodal münasibətləri inkişaf etməyə başladı. Xəlifələr dövlətə məxsus iri vilayətləri dövlətə xidmət müqabilində Əmirlərin istifadəsinə verirdilər. Zaman keçdikcə verilən torpaqlar irsi olaraq əmirlərin övladlarını istifadəsinə keçirdi. Yaranan bu cür əmrliklər zaman keçdikcə mərkəzi hökumətə tabe olmur ödəməli olduqları vergiləri dayandırırdılar. Tədricən mərkəzi hökumətin təsiri bölgələrdə azalır. Yaranan əmirliklərin başçıları yerli hakimlərə çevirilirdilər. Onlar bir biri ilə müharibələr aparır bir birinin torpağını tutur sülh bağlayır, mülkləri ilə əlaqədar istədikləri hökmü verirdilər. Belə bir siyasi şəraitdə sacilər sülaləsidə tarix səhnəsinə çixdı. Sacilər Azərbaycan torpaqların vahid mərkəzdə birləşdirərək, 50 ildən artıq bir zamanda Azərbayan ərazisində hakimiyətdə oldular.

Açar sözlər: Xilafət, Azərbaycan, Sülalə, Abbasilər, Sacilər, Feodal müharibələri.

Giriş. IX əsrin sonu X əsrin əvvəllərindən başlayaraq Abbasilər dövlətində mərkəzi hakimiyyət zəifləməyə başladı. Xilafətin zəifləməsindən istifadə edən iri feodallar öz aralarında quruplaşmalar yaradaraq bir biri ilə mübarizələr aparırdılar. Feodal ara müharibələri Abbasi xilafətini dahada zəiflədir xəlifənin hakimiyyəti artıq getdikcə formal xarakter alırdı. Mərkəzdən kənarda yerləşən iri və orta feodallara artıq xəlifəyə tabe olmaq istəmir onlar yeni yarım müstəqil və mestəqil dövlətlər qurmağa çalışırdılar. İri feodallar ilk növbədə xəlifə xəzinəsinə göndərilən vergilərin məbləğini azaldırdılar. Öz hakimiyyətlrini möhkəmləndirdikcə Mərkəzi hökumətə göndərdikləri vergiləri tamamilə dayandırırdılar. Feodallar bir biri ilə dağıdıcı müharibələr apaır daha güclülər zəif qonşularının mülklərini öz torpaqlarına qatmaqla mülklərini genişləndirirdilər. həmin dövrdə bu cür iri feodallar xəlifəyə açıq aşkar tabe olmaqdan imtina edirdilər. Abbasi hökuməti bu cür separatizmə qarşı qoşun göndərirdi. Bu cür savaşlarda xəlifənin qoşunları qalib gəldikdə asi feodal mərkəzə tabe olur yox əgər feodal qalib gəlirdisə, mərkəzi hakimiyyətlə əlaqəsini tamamilə kəsirdi. Belə olan halda xəlifə onların hakimiyyətin tanıyır feodal öz mülkündəki məscidlərdə verilən xütbələrdə öz adı ilə birlikdə xəlifənin adını çəkilməsi ilə kifayətlənirdi. Abbasilərin hakimiyyəti ilk olaraq Şimali Afrikada zəiflədi. Belə ki, həmin torpaqlarda İdrisilər Əqlənilər sülaləsinə mənsub iri feodallar möhkəmlənmişdilər. Bu dövrdə indiki Mərakeş, Tunis və Liviya ərazisindəki hakimlər öz müstəqilliklərini elan etdilər. Şimali Afrikada yerləşən Abbasi mülklərinin mərkəzdən ayrılmasından 20 il sonra Ərəbistan yarmadasının cənubunda Yəmən torpaqlarında Zeyidilər də Abbasilərdən ayrıldıqlarını elan etdilər. Abasilərin bu cür zəifləməsi nəticəsində Mərkəzi Asyada və Xorasanda ərazisində Tahirilər dövləti yarandı. 861-ci ildə xəlifə əl-Mütəvəkkil öldürüldükdən sonra babəkilər hərəkatının təsirilə artıq tamam zəifləmiş Xilafətin parçalanması prosesi yenidən başlanır: Təbəristanda Ələvilər, İranda Səffarilər, Misirdə Tulunilər, Xorasan və Orta Asiyada Samanilər dövlətləri yaranır. Bu dövrdə Xilafətin təsiri Azərbaycan ərazisində də zəifləyirdi. Artıq bu dönəm Azərbaycan torpaqların da bir sıra yarımmüstəqil feodal mülkləri mövcud idi. Bu mülklər hələ də formal olsa da, xilafətin bir parçası idilər. Azərbaycanın ərəblər tərəfindən fəth edilməsindən sonra bu torpaqlarda yaranan ilk müstəqil dövlət Sacilər dövləti oldu. Dövlətin əsasını Sacilər sülaləsinin mənsubları qoyduqları üçün dövlətin adı da tarixi qaynaqlarda məhz Sacilər dövləti olaraq qeyd olunmuşdur.

IX əsrin sonu - X əsrin əvvəllərindən başlayaraq Abbasilər dövlətində mərkəzi hakimiyyət zəifləməyə başladı. Xilafətin zəifləməsindən istifadə edən iri feodallar öz aralarında qruplaşmalar yaradaraq bir-biri ilə mübarizə aparırdılar. Feodal ara müharibələri Abbasi xilafətini daha da

zəiflədir, xəlifənin hakimiyyəti artıq getdikcə formal xarakter alırdı. Mərkəzdən kənarda yerləşən iri və orta feodallar artıq xəlifəyə tabe olmaq istəmir, yeni yarımmüstəqil və müstəqil dövlətlər qurmağa çalışırdılar. İri feodallar ilk növbədə xəlifə xəzinəsinə göndərilən vergilərin məbləğini azaldırdılar. Öz hakimiyyətlərini möhkəmləndirdikcə, Mərkəzi hökumətə göndərdikləri vergiləri tamamilə dayandırırdılar. Feodallar bir-biri ilə dağıdıcı müharibələr aparır, daha güclülər zəif qonşularının mülklərini öz torpaqlarına qatmaqla mülklərini genişləndirirdilər. Həmin dövrdə bu cür iri feodallar xəlifəyə açıq-aşkar tabe olmaqdan imtina edirdilər. Abbasi hökuməti bu cür separatizmə qarşı qoşun göndərirdi. Bu cür savaşlarda xəlifənin qoşunları qalib gəldikdə asi feodal mərkəzə tabe olur, yox əgər feodal qalib gəlirdisə, mərkəzi hakimiyyətlə əlaqəsini tamamilə kəsirdi. Belə olan halda, xəlifə onların hakimiyyətini tanıyır, feodal öz mülkündəki məscidlərdə oxunan xütbələrdə öz adı ilə birlikdə xəlifənin adının çəkilməsi ilə kifayətlənirdi. Abbasilərin hakimiyyəti ilk olaraq Şimali Afrikada zəiflədi [1, 237].

Sacilərin ana vətəni Mərkəzi Asyada yerləşirdi. Daha dəqiq desək, Usruşanadakı (Orta Asiya) Cankəkət adlı dağ kəndində yerləşirdi. Sülalənin banisi Əbu-s-Sac Divdad ibn Yusif ibn Divdast idi. Mənbələrdə onu Afşin titulu ilə qeyd edirlər. Məhz bu səbəb sacilərin türk mənşəli olması ehtimalını yüksəldir. Əbu Sacın adı mənbələrdə ilk dəfə Babəkin tutularaq Bərzəndə Afişinin düşərgəsinə aparılarkən, digər Ərəb sərkərdələri ilə birlikdə çəkilmişdir. Həmin dövrdə Əbu Sacın sərkərdəlik keyfiyyətləri üzə çıxırdı. Belə ki, Xəlifə onu həmin ərəfədə Xilafətə qarşı çıxmış Minkicəvr əl-Fərqaniyə qarşı yolladı. Bu yürüşlərdə uğur qazanan Əbu Sac daha sonra Təbəristan hakimi Məzayarın qiyamının yatırılmasına göndərildi. Əbu Sac hər iki səfərdə uğurla iştirak etdi. Ard-arda parlaq qələbələr qazanan Əbu Sac, getdikcə ordunun və xəlifənin etimadını qazandı.

Əbu Sacın sərkərdəlik istedadını dəyərləndirən Xəlifə Əl Mütəvəkkil onu Hicaz yolunun mühafizə rəisi təyin etdi. O, bu vəzifədə 865-ci ilə qədər qaldı. O, işinə vicdanla yanaşdığı üçün Xəlifə tərəfindən dəfələrlə təltif edilmişdi. Sonrakı dövrlərdə Xilafətdə Abbasi vəliəhdləri arasında hakimiyyət uğrunda ara müharibələri başladı. 865-ci ildə Əbu Sac Abbasi vəliəhdlərindən Müstəzzin namizədliyini dəstəklədi. Əbu Sac 865-ci ildə Mesapatomiyanın Cərcərayə şəhəri yaxınlığında xəlifə əl-Müstəinin qoşunlarını ard-arda üç dəfə məğlub etdi. 866-cı ildə Əbu Sac Kufə şəhərinin əmiri vəzifəsinə təyin edildi. Ardından yenidən Hicaz yolunun mühafizəsinin təşkili üzrə rəis təyin edildi. 870-874-cü illərdə Əbu Sac Hələb, Künsər, Mudar və digər Bizansla sərhəd vilayətlərinə vali, 874-cü ildə Əhvaz vilayətinə hakim təyin olundu. Həmin ərəfədə Mesapatomiyada zənci üsyanı adlanan kölə hərəkatı başlamışdı. Zənci qoşunları Əhvaz vilayətinin Dulab adlı bölgəsində Əbu Sacın qoşunlarını məğlubiyyətə uğratdılar. Ardından qiyamçılar Əhavaz vilayətini tutdular. Bu məğlubiyyət Əbu Sacın nüfuzunu sarsıtdı. O tutduğu vəzifələrdən azad edildi. Əbu Sac 879-cu ildə Cundi Saburda vəfat etdi.

879-cu ildə Əbu Sacın böyük oğlu Məhəmməd İbni Əbu Sac Hicaz yolunun mühafizi Məkkə və Mədinə şəhərlərinin hakimi, 882-ci ildə Ənbar vilayətinin valisi təyin edildi. Daha sonra ona Fərat və Rahba yollarının mühafizi vəzifələri tapşırıldı. Həmin dövrdə o, Mosul bölgəsində bir çox şəhərlərin idarəsini də öz əlinə aldı. Məhəmməd İbni Əbu Sacın nüfüzunun artması onun müttəfiqlərini də narahat edirdi. Belə ki, 886-cı ildə Məhəmmədin keçmiş müttəfiqi olmuş Şam hakimi İshaq ibn Kundəclə aralarındakı müttəfiqlik düşmənçiliyə çevrildi. 886-cı ildə Məhəmməd İbni Əbu Sac Misir hakimi Əhməd İbni Tulunla möhkəm ittifaq quraraq, İshaq ibn Kundəci ağır məğlubiyyətə uğratdı. Misir qoşunlarından yardım alan Məhəmməd 886-cı ildə Mosul bölgəsini tutmağa çalışan xəvric qüvvələrini darmadağın etdi. Bölgədə nüfuzunun artmasından istifadə edərək, Əlcəzirə və Mosul bölgələrini ələ keçirdi. Növbəti il Məhəmməd İbni Əbu Sac Əhməd İbni Tulunun hakimiyyətini tanımaqdan imtina etdi. Keçmiş müttəfiqlər arasında Şam yaxınlığında baş verən döyüşdə Məhəmmədin ordusu Tulunilər tərəfindən darmadağın edildi. Məhəmməd əvvəlcə Hələb şəhərinə, ardından Rakkaya, sonra Mosula, ən nəhayət Hədisə bölgəsinə tərəf çəkildi. Məhəmmədi bir müddət təqib edən Xumaraveyh daha sonra onun təqibini tulunilərlə ittifaqa qoşulan İshaq ibn Kundəcə tapşırdı. Məhəmməd geri dönərək, İbni İshaqı Mosul yaxınlarında qarşıladı. Tərəflər arasında baş verən döyüşdə Məhəmməd qalib gəldi. İbni İshaq Hələbə doğru geri çəkildi. Məhəmməd İbni İshaqın ardınca Şama doğru irəllədi, ancaq İbni İshaq yenidən Tulunilərlə birləşdi.

Bundan sonra Məhəmməd yürüşü dayandıraraq İraqa geri döndu. O, Bağdada gəldi, xəlifə tərəfindən ehtiramla qarşılanaraq bir sıra torpaqların hakimi təyin edildi. 889-cu ildə Dəbilin, 890-cı

ildə isə Azərbaycanın hakimi təyin olunan Məhəmməd 891-ci ildə Azərbaycana gəldi. Ancaq Marağa hakimi Abdullah ibn əl-Hüseyn əl-Həmədani onun hakimiyyətini tanmaqdan imtina edərək, şəhərə buraxmadı. Məhəmməd Marağanı mühasirəyə alaraq uzun müddət mühasirədə saxladı. 893-cü ildə şəhər hakimi öldürüldükdən sonra Marağa təslim oldu. Beləliklə, Məhəmmədin Azərbaycan hakimiyyəti başladı.

Sacilərin Azərbaycandakı hakimiyyət illəri Abbasilər dövlətinin ağır siyası böhran keçirdiyi dövrə təsadüf edirdi. Mərkəzdən ayrılmış keçmiş Abbasi canişinləri öz hakimiyyətlərini möhkəmləndirməyə çalışırdılar. İlk dövrlər Məhəmməd xəlifənin ali hakimiyyətindən tamamilə imtina etmədi. Xəlifə Məhəmmədin sədaqətinə güvənərək onu Bağdada çağırdı [2, 203]. Hökumətə qarşı üsyan etmiş qoşunların və bədəviləruin üsyanının yatırılmasında Məhəmmədin də xidmətlərindən istifadə etdi. Məhəmməd 902-ci ildə üsyan yatırıldıqdan sonra Xəlifənin icazəsi ilə Azərbaycana geri döndü. Məhəmməd İbni Əbu Sac Azərbaycan torpaqlarına canişin təyin edildiyi dövrdə bölgədə bir sıra siyasi proseslər baş verirdi. Belə ki, Ərməniyyə hakimi I Aşot Baqrati (884-890) ölmuş, onun sələfləri Bizansla yaxınlaşma siyasəti aparırdılar. I Aşotun varisləri arasındakı mübarizədən I Sumbat qalib gəldi. O, xilafətdən tamamilə ayrılmaq niyyətində idi. I Sumbatı müsəlmanlara qarşı istifadə etmək istəyən Bizans onu dəstəkləyirdi. Xəlifə I Sumbatla münasibətləri gərginləşdirmək istəmədiyi üçün onun Ərməniyyədəki hakimiyyətini tanıdı. Xəlifə I Sumbatı təltif etmək üçün Məhəmməd vasitəsilə ona tac və qiymətli xələtlər göndərdi. Hakimiyyətini möhkəmləndirən I Sumbat Bizans imperatoru VI Levlə müttəfiqlik münasibətləri qurmağa başladı. Bizans-erməni ittifaqından xəbər tutan Bağdad hökuməti Məhəmməd İbni Əbu Saca I Sumbatın cəzalandırılması göstərişini verdi. Məhəmməd hərbi əməliyyatlara başladı. Birinci hərbi səfər sülhlə başa çatdı. Sumbat xilafətin hakimiyyətini tanıdı. I Sumbat hakimiyyətini möhkəmləndirdikdən sonra Ərməniyyədən şimaldakı torpaqları işğal etməyə başladı. Bu dövrdə Baqratilərin siyasi nüfuzu da artmaqda idi. Bütün bu səbəblərdən, Xəlifənin göstərişi ilə 893-cü ildə Məhəmməd ermənilərə qarşı hərbi əməliyyatlara başladı. Hərbi səfərə başlayan Məhəmməd Divin şəhərini mühasirəyə aldı. Təşvişə düşən ermənilər Katalikos II Georqu barışıq üçün Məhəmmədin yanına göndərdilər. Ancaq Məhəmməd I Sumbatın onun hüzuruna gələrək təslim olmasını tələb etdi. Məhəmmədin tələbi yerinə yetirilmədiyi üçün o, hərbi səfəri davam etdirdi. Ard-arda qələbələr qazanan Məhəmməd İbni Əbu Sac çoxlu əsirlər ələ keçirdi. Vjan qalası ətrafında düşərgə salan Məhəmmədin ordusu qəfil hücuma məruz qalaraq xeyli itki verdi. Məhəmməd geri çəkilməyə məcbur oldu. O, katalikos II Georqu da özü ilə apardı. Sonrakı dövrlərdə Alban hökmdarı Qriqor Hammamın xahişi ilə Məhəmməd II Georqu azad etdi. Məhəmməd İbni Əbu Sac Xilafət əleyhinə baş qaldırmış bədəvi qiyamlarını yatırarkən, 896-cı ildə I Sumbat Suriya torpaqlarına soxuldu Ancaq Şam əmirinin qoşunları tərəfindən ağır məğlubiyyətə uğradılaraq, geri oturduldu. Məğlubiyyətin ardından I Sumbat Ərməniyyə vilayətinə geri çəkilməyə məcbur oldu. Bu məğlubiyyətdən sonra onun mövqeyi zəiflədi.

Ərməniyyədə nahararların (Feodalların) Sumbata qarşı qiyamı başladı. Ərməniyyədəki bu hərc-mərcliyə son qoymaq üçün Məhəmməd yenidən I Sumbata qarşı hərbi yürüşə başladı. O, Ərməniyyənin bir çox vilayətlərini fəth etdi. I Sumbatın ailəsi ilə birlikdə bir çox qohumları da Məhəmməd İbni Əbu Sacın əlinə keçdi. I Sumbatın yaxınlarından əlavə Məhəmməd bir çox üsyançı naharanın ailələrini də əsir aldı. Məhəmmədin bu uğurları xəlifə tərəfindən yüksək qiymətləndirildi. 898-ci ildə Xəlifə Ərməniyənin də hakimiyyətini Məhəmməd Afişin İbni Əbu Saca tapşırdı. Bu hadisə I Sumbatla Məhəmməd arasındakı ziddiyyətləri daha da dərinləşdirdi. Bununla belə, o, ölkəni tərk edərkən oğlu Divdadı Dvin şəhərində qoyub gedən Məhəmməd Sacinin hakimiyyətini tanımalı oldu [1, 240].

I Sumbatın müqavimətini sındıran Məhəmməd Gürcüstan ərazisinə hərbi səfərə çıxdı, Tiflis və ətraf vilayətləri tutdu. Həmin vaxt Gürcüstanda hakimiyyət II Atrnersehin (881-926) əlində idi. II Atrnerseh Məhəmmədə heç bir müqavimət göstərə bilmədi. Məhəmmədin ölkədə olmamasından istifadə edən I Sumbatın Ani və Dvini yenidən ələ keçirib, Divdadı ona bac verməyə məcbur etməsi, Sacilər ordusunu geri qayıtmağa vadar etdi. Lakin bu zaman Azərbaycanda taun xəstəliyi baş qaldırdı. O qədər adam qırıldı ki, ölənlərə kəfən tapmaq mümkün olmadı, onları paltarlara və keçələrə bükürdülər. Ölüləri basdırmırdılar, onlar yollarda atılıb qalmışdılar. Taun, Məhəmməd İbni Əbu Sacın yaxın adamlarını da tutdu. Onun xeyli xidmətçisi qırıldı. Mart ayında Azərbaycanın Bərdə şəhərində

Afşin adlandırılan Məhəmməd İbni Əbu Sacın özü də vəfat etdi [1, 241]. Məhəmməd İbni Əbu Sacın qəfil ölümü Sacilərin bölgədə mövqeyini zəiflətdi. Gürcü, erməni feodalları və onların havadarı Bizans Azərbaycan torpaqlarını işğal etmək üçün yenidən birləşdilər. Ancaq onların bu planını Məhəmmədin digər qardaşı Yüsif İbni Əbu Sac pozdu. Yusif əvvəllər Xəlifənin əmirində müxtəlif vəzifələrdə çalışmışdı. O, bir müddət Hicaz yolunun mühafizlərinin rəisi olmuşdu. Ancaq sonralar xəlifənin əleyhinə çıxması ittihamı ilə həbs edilərək Bağdada göndərilmişdi. Xəlifə Yusifin xidmətlərini və istedadını nəzərə alaraq onu əfv etdi. Daha sonra Yusif Xəlifənin ordusunda xəvariclərə qarşı döyüşdü. O, 896-cı ildə Marağaya qardaşının yanına gəldi. Məhəmmədin vəfatına qədər orada qaldı. Məhəmmədin vəfatından sonra onun oğlu Divdad Dəbil şəhərindən Marağaya, Sacilərin mərkəzi şəhərinə gəldi. Onun hakimiyyəti uzun sürmədi. 901-ci ildə Saci qoşunları Yusifə biət edərək, onun hakimiyyətini tanıdılar. Yusuf Divdaddan onun yanında qalmasını xahiş etdi, lakin Divdad Bağdada gedərək Xəlifəyə xidmət etmək istədiyini bildirdi. Yusuf Divdadı Bağdada yola saldı.

Yusifin hakimiyyət illərində Ön Asya və Qafqaz bölgəsində də xilafətdən ayrılma meyilləri gücləndi. Ancaq Yusif Xilafətdən tam ayrılmaq istəmirdi, buna baxmayaraq hakimiyyətə gəlmiş yeni xəlifə əl-Müqtafi (902-908) Sacilərin mövqeyini zəiflətmək üçün Ərməniyyəni onların tebeliyindən çıxararaq bir başa xəlifəyə tabe etmək istəyirdi. Xəlifəni bu cür qərar verməyə Ərməniyyə hakimi I Sumbat təhrik edirdi. 908-ci ildə Xilafətdə hakimiyyətə yeni xəlifə əl-Müqtədir (908-932) gəldi. O, Yusiflə münasibətlərini yaxşılaşdıraraq, onu Azərbaycan və Ərməniyyənin hakimi təsdiq etdi. I Sumbat Yusifin hakimiyyətini tanımaq istəmədiyindən, Xəlifədən Ərməniyyəni Sacilərin hakimiyətindən azad etməsini xahiş etdi. Əvəzində Ərməniyyənin xilafətə tam tabe ediləcəyi sözünü verdi. Bu danışıqlardan xəbər tutan Yusif Bin Əbu Sac Ərməniyyə üzərinə yürüşə çıxdı. O, Divin şəhərini mühasirəyə aldı. I Sumbatla qısa müddətli sülh bağladı. Sonrakı il, Yusif Vaspurakan knyazları Arsrunilər ilə I Sumbat arasındakı ziddiyyətlərdən istifadə edərək, Ərməniyyə ərazisinə daxil oldu; bir qədər sonra isə hökmdar tacını Qaqik Arsruniyə təqdim etdi. Bu tədbir I Sumbatın mövqelərini xeyli zəiflətdi [1, 241]. I Sumbat barışıq üçün katalikos İhonı Yusifin yanına göndərdi. Yusif katalikosun sülh təklifinə əhəmiyyət vermədi. Əvəzində o, İhoanı yanında saxladı. Yusif uğurlu yürüşlərini davam etdirərək, Ərməniyyənin bir çox vilayətini özünə tabe etdi. O, azğınlığı ilə seçilən Sünik hakiminin qoşunlarını darmadağın etdi. Yusif I Sumbatdan illik vergi olaraq 60 min dinar tələb etdi. Yusifin tələbini qəbul edən I Sumbat, vergiləri beş dəfəyə qədər artırdı ki, bu da Ərməniyyədə I Sumbatın nüfuzunu tam məhv etdi. I Sumbatın necə məkirli biri olduğunu bilən Yusif təqibini davam etdirərək, Dzeknavatcor adlanan yerdə ona yetişdi. Yusifin ordusu erməni qoşunlarını darmadağın etdi. I Sumbat Şirak vilayətinə çəkildi. Yusif Şiraka girərək vilayəti tutdu, müqavimət göstərən feodalların qoşununu məhv etdi. Şirakdan dönən Yusif Dvin şəhərini yenidən fəth etdi. Uğurlu yürüşlərini davam etdirən Yusif Gürcüstan torpaqlarına daxil oldu. O, Tiflis müsəlman əmirliyini özünə tabe etdikdən sonra, Kartli ərazisinə daxil oldu. Kartlini tutduqdan sonra, ardından Kaxetyada uğurlu səfərlər həyata keçirdi. Yusif Gürcüstandakı hərbi əhəmiyyətli bütün qalaları dağıdaraq yenidən Ərməniyyəyə döndü. Yusif I Sumbatın son sığınacağı olan Yerencək qalasını tutaraq, Sumbatı diri ələ keçirdi. 914-cü ildə I Sumbat Dvin şəhərində edam olundu. Beləliklə, Ərməniyyə torpaqları tamamilə Sacilərin tabeliyinə keçdi. Yusif Ərməniyyə taxtına I Sumbatın qardaşı oğlu Aşotu (914-928) gətirdi. Aşot Ərməniyənin Sacilərdən tam asılı olmasını qəbul etdi. Ərməniyyəni tam tabe etdikdən sonra Sacilər qərbdə Ani və Dvin şəhərlərindən şərqdə Xəzər dənizi, cənubda Zəncan vilayətindən, şimalda Dərbənd keçidinə kimi olan böyük bir ərazidə hakimiyyətlərini bərqərar etmişdilər. Bu geniş ərazidəki bütün vilayətlərin yerli və gəlmə hakimləri (Şirvan, Şəki, Xaçın, Sünik, Kartli, Kaxet) Sacilərin hakimiyyətini tanıyır, onlara vergi ödəyirdilər. Həmin dövrdə Xəlifənin vəziri İbn əl-Furatın uğurlu daxili və xarici siyasəti Xəlifə hakimiyyətini möhkəmləndirirdi. Yüsifin İbn əl Furatla olan yaxşı münasibətləri, onun mövqeyini möhkəmlədirdi. Yusif İbn əl Furata illik vergi olaraq 120 min dinar ödəyirdi. 912-ci ildə İbn əl Furat vəzifəsindən kənarlaşdırıldı.

Xilafətin mərkəzində başlayan itaətsizlikdən istifadə edən Yusif illik vergi ödənişini dayandırdı. Yüsifin Mərkəzə vergi ödəməsini dayandırması onun əlində külli miqdarda sərvət toplanmasına səbəb oldu. O, xilafət ordusu ilə savaşacaq qədər güclü ordu yarada bildi. Yeni vəzir Əli İbni İsa Rey, Qəzvin, Əbhər və Zəncan vilayətlərində hərbi işlər amiri vəzifəsinin Yusifə verilməsi ilə bağlı söz vermişdi. Yusif Reyi tutmaq niyyətilə səfərə çıxdı. O, şəhəri mühasirəyə aldı. Həmin ərəfədə

Reyi Samanilər tərəfindən təyin edilmiş Əli Səluq idarə edirdi. Yusifin hücumlarına tab gətirməyən Əli Səluq şəhəri təslim etdi. Reyi tutduqdan sonra, Yusif Qəzvin və Zəncanı da ələ keçirdi. Yusifin uğurlarından narahat olan Bağdad hökuməti onun yeni ərazilərdəki hakimiyyətini tanımadı. Yusif bu torpaqları Əli İbni İsanın fərmanına əsasən tutduğunu bildirdisə də, Əli İbni İsa bunu təkzib etdi. Yusifi özbaşınalıqda ittiham edən xəlifə 20 minlik qoşunla əl-Müflihiyə onun cəzalandırılmasını tapşırdı. Ancaq Yusif 7 minlik əsgərlə xəlifənin göndərdiyi ordunu məğlub etdi. Xəlifə yenidən Yusifin üzərinə qoşun göndərdi. Yusif xəlifəyə tabe olacağını, həmçinin illik 700 min dinar vergi verəcəyinin əvəzində yeni torpaqların onda qalmasını istədi. Yenidən vəzifəyə gələn vəzir İbn əl-Furat Yusifin xahişini qəbul etmək istəsə də, digər saray məmurlarının təhrikləri nəticəsində Yusifin istəyi qəbul olunmadı. 919-cu ildə Ərdəbil yaxınlığında baş verən döyüşdə Yusif məğlub olaraq əsir düşdü, Bağdada aparılaraq həbs edildi. Sacilərin tabeliyindəki torpaqlara yeni hakimlər təyin olundular. Xilafət qoşunları Azərbaycanı tərk etdikdən sonra Yusifin azad etdiyi keçmiş köləsi onun tərəfdarlarını ətrafına toplayaraq hakimiyyəti əlinə aldı. Xəlifə, Məhəmməd ibn Abdullah əl-Fariqini Azərbaycana hakim təyin edib, onu qoşunla Subukun üzərinə göndərdi. Lakin xəlifə ordusu darmadağın edildi. Tam hüquqlu hakimə çevrilmiş Subuk xəzinəyə ildə 220 min dinar vergi vermək şərtilə hakimiyyətinin xəlifə tərəfindən tanınmasına nail oldu. Subuk müstəqil siyasət yürüdürdü, Ərməniyyə hakimi Aşotla ittifaqa girmişdi. Subuk Bizansın Azərbaycan torpaqlarına etdiyi hücumun da qarşısını məharətlə almışdı. Dvini tutan bizanslılar, Subukun hücumları nəticəsində geri çəkilmişdilər. Subukun apardığı müstəqil siyasət Xilafətin Qafqazdakı və Ön Asyadakı torpaqlarının itirilməsi təhlükəsini yaradırdı. Saraydakı dövlət məmurlarının təhriki ilə xəlifə əl-Müqtədir Yusifi azad edərək, əvvəlki vəzifələrinə yenidən təyin etdi. Əvəzində o, ildə xilafət xəzinəsinə 500 min dinar vergi ödəməyi öhdəsinə götürdü. 922-ci ildə Yusif Ərdəbil şəhərinə gəldi. Həmin ərəfədə Subuk da vəfat etdi. Yusif Arrana və Ərməniyyəyə öz valilərini təyin etdi. Yerli hakimlərdən iki illik vergilərin verilməsini tələb etdi. 924-cü ildə Rey şəhərini, 925-ci ildə isə Həmədan şəhərini tutdu [4, 158]. Yusifin uğurları bəzi saray xadimlərini narahat edirdi. Onlar Yusifi Bəhreyndə baş qaldırmış Qəramətilərin üzərinə göndərməsi üçün Xəlifəyə təzyiq edirdilər. Yusif Bağdada çağırılaraq Qəramətilərin üzərinə göndərildi. 927-ci ildə Yusif İbni Əbu Sac Bəsrə şəhəri yaxınlığında Qəramətilərlə apardığı döyüşdə yaralanaraq əsir düşdü. Xəlifənin Yusif üçün göndərdiyi fidyələri alan Qəramətilər, verdikləri vədə xilaf çıxaraq bu böyük sərkərdə, müdrik dövlət xadimini öldürdülər. Azərbaycan torpaqlarını qısa müddətli də olsa birləşdirməyi bacaran Yusif İbni Əbu Sacın hakimiyyəti başa çatdı.

Yüsifin ölümünün ardından qardaşı oğlu Əbülmüsafir əl-Fəth ibn Məhəmməd Azərbaycan hakimi təyin olundu. Ancaq onun hakimiyyəti uzun sürmədi. Əbülmüsafir əl-Fəth ibn Məhəmməd 929-cu ildə öldürüldü. Əl-Fəthdən sonra hakimiyyəti Sacilərin qulamı Vasif əs-Sirvani ələ keçirdi. Ancaq Vasif əs Sirvani də öz hakimiyyətini Sacilərə məxsus bütün torpaqlarda təmin edə bilmədi. Vasif əs Sirvanidən başlayaraq, Azərbaycanı Saci sülalə mənsubları deyil, onların qulamları (azad edilmiş kölələri) idarə edirdi. Vasif əs Sirvanidən sonra Yusifin keçmiş qulamlarından olmuş və sərkərdəsi olan Muflih Azərbaycanda hakimiyyəti ələ keçirdi. Tarixi mənbələrdə Sacilər dövlətinin bu dövrü haqqında olduqca az məlumat verilir. Ancaq Ərdəbil və Bərdə ərazisində Muflihin adına kəsilmiş sikkələr üzərindəki yazılar onun miladi 931-932-ci illərdə hakimiyyətdə olduğundan xəbər verir. Qədim mənbələrdə onun erməni Bizans qüvvələrinə qarşı döyüşməsindən bəhs edilir. 932-ci ildən başlayaraq Yusifin əmirləri arasında ara müharibələri başladı. Baş verən bu savaşlarda əmirlər iki qrupa ayrılmışdılar. Bir qrup əmir Muflihin, çoxu isə Deysəm ibn İbrahim ibn Şadluyənin (Balduyə) tərəfini tuturdu. Bu ara müharibələri 941-ci ilədək davam etdi. Baş verən müharibələrdən Deysəm qalib ayrıldı. Sacilər arasında başlayan ara müharibələrindən istifadə edən Deyləm hakimi Ləşkəri ibn əl-Mərdi Azərbaycan torpaqlarını işğal etmək məqsədilə hərbi yürüşə başladı. O, Sacilərə məxsus bir sıra vilayətləri işğal etdikdən sonra, dövlətin mərkəzi sayılan Ərdəbil şəhərini mühasirəyə aldı. Ancaq Ərdəbil əhalisi şəhəri təslim etməyərək Ləşkəri ibn əl-Mərdiyə güclü müqavimət göstərdilər. Ləşkəri ibn əl-Mərdi Ərdəbili mühasirədə saxladığı zaman Deysəm özünü şəhərin müdafiəçilərinin yardımına yetirdi. Şəhər sakinlərinin qala divarlarının arxasından çıxaraq hücümu və Deysəmin süvarilərinin qəfil basqını nəticəsində, Ləşkəri ibn əl-Mərdinin ordusu darmadağın edildi. Ləşkəri ibn əl-Mərdi Muğanda müttəfiqi olan yerli hakimlərdən birinin qalasına sığınmaqla canını qurtara bildi. Aranın sakitləşməsindən istifadə edən Ləşkəri ibn əl-Mərdi Gilana qayıdaraq yenidən ordu toplaydı.

O, yenidən Azərbaycana daxil olaraq, Araz çayının sahilində düşərgə salmış Deysəmin ordusuna qəfil hücüm etdi, gözlənilməz hücum nəticəsində Deysəm məğlub olaraq Rey şəhərinə doğru geri çəkildi. Rey hakimi Vuşməgirlə ittifaqa girərək yenidən güclü ordu toplaya bildi. Həmin vaxt Muğan ərazisində baş vermiş yolxucu xəstəlik nəticəsində, Ləşkəri ibn əl-Mərdinin Muğandakı müttəfiqi də öldü. Deysəmin qəfil hücumundan ehtiyatlanan Ləşkəri ibn əl-Mərdi Arazı keçərək, Vaspurakan üzərinə səfərə çıxdı, ancaq yolda sui-qəsd nəticəsində öldürüldü. Ləşkərinin öldürülməsinin ardından, orduya onun oğlu rəhbərlik etdi. Ləşkərinin oğlu uğursuz döyüşlərdən sonra məğlub olaraq Mosul hakimi Nəsirəddövlənin himayəsinə sığındı. Nəsirəddövlə onu yenidən ordu liə təchiz etdi. Hərbi yardım müqabilində Nəsirəddövlə Azərbaycanın cənub-qərb torpaqlarını tutdu. Deysəm Həmdan qoşunlarının işğal etdiyi yerlərin bir hissəsini geri qaytara bildisə də, Azərbaycan üzərində əvvəlki hakimiyyətini bərqərar edə bilmədi. Bunun ən önəmli səbəbi, feodal çəkişmələri idi.

Nəticə. Sacilər Cənubi Qafqazın və Ön Asiyanın bir çox vilayətlərini özlərinə tabe etmişdilər. Bu vilayətlərdən ən önəmliləri Şirvan, Curzan, Xaçın, Şəki, Haydak, Əhər, Kartli, Kaxet kimi inkişaf etmiş vilayətlər idi. Bu da Sacilərin dövlət xəzinəsinə külli miqdarda maliyyə axınını təmin edirdi. Məhəmməd İbni Əbu Sacın dövründə xilafət mərkəzinə ödənilən vergi miqdarı 500 min dinar təyin olunmuşdu ki, bu da olduqca böyük məbləğ demək idi. Deysəmin hakimiyyəti illərində dövlətin maliyyə işlərini olduqca bacarıqlı maliyyəçi kimi tanınmış Əbülqasım Əli ibn Cəfər aparırdı. Əbülqasım Əli ibn Cəfər Azərbaycan əsilli idi. O, Yusif İbni Əbu Sacın hakimiyyəti illərində də dövlətin maliyyə sisteminə rəhbərlik etmişdi. Uzun illər Sacilər sülaləsinə sədaqətlə xidmət etdikdən sonra Əbülqasım Əli ibn Cəfər bəzi iqtidar mənsubları tərəfindən iftiralara məruz qalaraq şərləndi. Daha sonra bütün ali vəzifələrdən kənarlaşdırıldı. Bu cür alçaldıcı münasibətlərə dözməyən Əbülqasım Əli ibn Cəfər gizlincə Deyləm hakimi Məhəmməd ibn Müsafirin yanına getdi. Sacilər dövlətinin ağır siyasi böhran keçirdi haqda hakimin oğlu Salar Mərzban ibn Məhəmmədə məlumat verərək, onu Sacilər üzərinə yürüş etməyə inandıra bilir. Salar Mərzban ibn Məhəmməd 941-ci ildə Sacilərin ərazisinə girərək, paytaxt Ərdəbil şəhərini tutdu və Deysəmin hakimiyyətinə son qoydu. 50 ildən artıq bir zaman kəsimində Azərbaycan torpaqlarında hökm sürmüş Saci dövlətinin varlığına son qoyuldu. Xilafətin zəiflədiyi bir dönəmdə bütün Azərbaycan torpaqlarının vahid dövlət ətrafında birləşməsi mütərəqqi hadisə idi. Düzdür Sacilər bəzən tam müstəqil, bəzən isə xilafətin tabeliyində mövcud olsalar da, onlar Azərbaycan torpaqlarını Bizans və erməni təcavüzündən qoruya bilmişdilər.

ƏDƏBİYYAT

1. Azərbaycan tarixi. Yeddi cilddə. II cild (III–XIII əsrin I rübü). Bakı, "Elm", 2007, 608 s.
2. Ziya Bünyadov. Azərbaycan VII–IX əsrlərdə. Bakı, "Şərq-Qərb", 2007, 424 s.
3. Movsey Kalankatuklu. Albanya tarixi. Mixtar Qoş Alban sələnaməsi. Bakı, "Avrasya press", 2006, 295 s.
4. Madelung W. "The Minor Dynasties of Northern Iran". In Frye, Richard N. (ed.). The Cambridge History of Iran, Volume 4: From the Arab Invasion to the Saljuqs. Cambridge: Cambridge University Press, 1975, pp.198–249.
5. Clifford Edmund Bosworth. The New Islamic Dynasties: A Chronological and Genealogical Manual, Columbia University, 2007, 791 p.
6. Minorsky V. Studies in Caucasian history. Cambridge University Press, 2004, 560 p.

ИЛЬХАМ МАМЕДОВ
Старший преподаватель кафедры истории Азербайджана Гянджинского государственного университета, доктор философии по истории

О ДИНАСТИИ, ОБЪЕДИНИВШЕЙ АЗЕРБАЙДЖАНСКИЕ ЗЕМЛИ В ЕДИНОЕ ГОСУДАРСТВО

Со середины IX века в Аббасидском халифате стали развиваться феодальные отношения. Халифы отдавали амирам крупные провинции, принадлежавшие государству, в обмен на

службу государству. Со временем земли, отдаваемые в обмен на военную службу, передавались по наследству детям эмиров. Образовавшиеся такие феодальные поместья постепенно переставали подчиняться центральной власти и прекратили платить налоги. Со временем влияние центральной власти в регионах уменьшилось. К независимости стремились главы вновь возникших полунезависимых феодальных сословий. Они вели войны друг с другом, оккупировали земли друг друга, заключали мир и создавали новые союзы. В такой политической ситуации на арену истории вышла династия Саджи, которая объединила земли Азербайджана в единый центр и господствовала на территории Азербайджана более 50 лет.

Ключевые слова: Халифат, Азербайджан, Династия, Аббасиды, Саджи, феодальные войны.

ILHAM MAMMADOV
Head teacher of Azerbaijan History Department
of Ganja State University, doctor of philosophy in history

ABOUT THE DYNASTY THAT UNİTED THE AZERBAİJANİ LANDS İNTO A SİNGLE STATE

From the middle of the 9th century, feudal relations began to develop in the Abbasid caliphate. The caliphs gave large provinces belonging to the state to the Amirs in exchange for service to the state. Over time, the roepags were inherited by the children of the emirs. Over time, such orders that arose did not obey the central government and stopped the taxes they had to pay. Gradually, the influence of the central government decreases in the regions. The heads of the emerging emirates were turned into local judges. They waged wars with each other, occupied each other's land, made peace, and gave whatever verdict they wanted regarding their property. In such a political situation, the Saji dynasty entered the stage of history. The Sajis united the lands of Azerbaijan in a single center and dominated the territory of Azerbaijan for more than 50 years.

Keywords: Caliphate, Azerbaijan, Dynasty, Abbasids, Sajis, Feudal wars.

Məqalənin redaksiyaya daxil olduğu tarix: 05 oktyabr 2023-cü il.
Məqalənin çapa qəbul olunma tarixi: 21 dekabr 2023-cü il.
Rəyçilər: t.ü.f.d. Səidə İsmayılzadə, t.e.d. İsmayıl Məmmədov.